**UOT 338.48**

# QARABAĞ İQTİSADİ RAYONUNDA TURİZMİN ƏSAS İSTİQAMƏTLƏRİ

**Sadiq ƏSKƏROV** [*]

Məqalə redaksiyaya daxil olmuşdur: 15 iyun 2023; çapa qəbul edilmişdir: 25 iyun 2023; online-da çap edilmişdir: 30 iyun 2023.

Received: 15th of June, 2023; accepted: 25th of June, 2023; published online: 30th of June, 2023.

**Açar sözlər:** *Turizm, Qarabağ iqtisadi rayonu, turizmin inkişafı, turizm potensialı, turizm resursları*

## Giriş

Qarabağ iqtisadi rayonu coğrafi, sosial-iqtisadi baxımdan, o cümlədən turizm potensialına görə ölkəmizin strateji nöqteyi-nəzərdən mühüm hesab edilən regionlarından biridir. Bu gün Qarabağ iri infrastruktur layihələri, bərpa-quruculuq fəaliyyəti, o cümlədən turizm infrastrukturunun yaradılması üzrə müvafiq işlər icra olunur, bu regionda ölkəmizin turizm sektrounun əsas istiqamətləri müəyyən edilir. Bu məqalədə biz Qarabağ iqtisadi rayonunun turizm potensialının qiymətləndirilməsi və bu bölgənin gələcəkdə ölkəmizin turizm infrasturkturuna verə biləcəyi töhfələri səciyyələndirmək üçün iqtisadi rayon kimi Qarabağda turizmin əsas inkişaf istiqamətlərini təhlil edəcəyik.

## Qarabağda turizm infrastrukturu

Qarabağda turizmin növlərindən asılı olaraq müvafiq qaydada məhz həmin sahələr üzrə turizm infrastrukturunun yaradılmasını təmin etmək mümkündür. Hələ işğaldan əvvəl Qarabağ turizm sahəsindəki geniş inkişaf potensialına görə fərqlənmişdir. Lakin Qarabağ və ətraf rayonlarda erməni təcavüzü nəticəsində hazırda turislərin təhlükəsizliyinə təminat verilməsi ilə bağlı problemlər mövcuddur. Təcavüz nəticəsində infrastruktur demək olar ki tamamilə dağıdılmışdır. Qarabağda turizm imkanlarından tam istifadənin üç əsas amil təmin edildikdən sonra mümkün olacağı proqnozlaşdırılır. Bunlar ərazilərdə təhlükəsizliyin təminatı, əhalinin oraya qayıdışı və infrastrukturun yaradılmasıdır. Yaxın gələcəkdə bütün bu məsələlər həll edildikdən sonra Azərbaycanın turizmində Qarabağ regional əhəmiyyətli, daha sonra dünya əhəmiyyətli ekoturizm mərkəzinə çevriləcək və bölgə qısa zamanda regionun cəlbedici turizm istiqamətlərindən birinə çevriləcək.

Qarabağda həmçinin tarixi və mədəni irs kontekstində regionda turizmi inkişaf etdirmək üçün bu bölgədə turizm infrastrukturları yaradılmalı, inkişaf perspektivi olan sahələrə investisiya qoyulmalı, nəqliyyat və rabitənin inkişafı və beynəlxalq təcrübənin öyrənilməsi həyata keiçirlməlidir.

Qarabağda turizm sektorunun inkişafı diqqət mərkəzində saxlanılaraq, burada ilk mərhələdə daha çox ermənilərin törətdikləri dağılmış mədəni və tarixi yerlərin ziyarət olunması, daha sonra isə infrastruktur tam bərpa edildikdən sonra istirahət turizminin təşkili baş tutacaq.

[*] *magistrant, Bakı Avrasiya Universiteti*
*e-mail*: asgerov17@mail.ru

Qarabağda turizm infrastrukturunun yaradılmasının ən mühüm istiqamətlərindən biri də burada əhalinin qayıdışı ilə əlaqədar bərpa-quruculuq işlərinin daha da sürətli formada aparılmasıdır. Bu məqsədlə Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 21 iyul tarixli 1757 nömrəli Fərmanı ilə təsdiq edilmiş Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidmətinin Nizamnaməsində qeyd edilir ki, Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad olunmuş ərazilərə (Şuşa rayonu istisna olmaqla) əhalinin qayıdışı ilə əlaqədar çoxmənzilli binaların və fərdi yaşayış evlərinin tikintisinin təşkili, bu qaydada tikilmiş çoxmənzilli binaların idarə edilməsi, habelə müvafiq ərazidə abadlaşdırma, yaşıllaşdırma və mənzil-kommunal təsərrüfatı sahələrində fəaliyyət göstərən publik hüquqi şəxsdir. [8] Hazırda Böyük Qayıdış prosesinin daha da sürətlənməsi və bu prosesdə təşkilati məsələlərin səmərəli şəkildə icra olunması regionda turizmin inkişafına müsbət təsir edəcək ən mühüm amillərdən biridir. Qarabağda turizm infrastrukturunun ən mühüm istiqamətlərindən biri də turizmin dəstəklənməsi məqsədilə yardımların, subsidiyaların verilməsi ilə bağlıdır. Qarabağda, işğaldan azad edilmiş ərazilər üzrə turizm layihələrinə dövlət dəstəyi xüsusilə vacibdir. Qarabağda turizmin inkişafı üçün təkcə otellərə yox, digər turizm şirkətlərinə, daxili və gəlmə turizmlə məşğul olan şirkətlərə də dövlət dəstəyi göstərilməlidir. Çünki turizm, o cümlədən Qarabağın turzmi Azərbaycan iqtisadiyyatında mühüm amildir.

Yeni istehsal və sosial infrastruktur layihələrinin həyata keçirilməsi, bütövlükdə Qarabağ iqtisadiyyatının vahid bir regional sistem kimi inkişafı, kəndlərin inkişafı, xüsusilə bu regionda "ağıllı kənd" layihələrinin tətbiqi də regionda turizmin inkişafına əlverişli şərait yaradan elementlərdəndir. Qarabağın zəngin təbiəti, əlverişli coğrafi mövqeyi Qarabağı modern və ölkəmizin ən zəngin və iqtisadi cəhətdən ən güclü regionlarından birinə çevirilməsinə imkan yaradacaq.

**Qarabağda turizmin əsas inkişaf istiqamətləri**

Qarabağda dağ, qış, ov, kənd turizminin inkişafı üçün prespektivlər mövcuddur. Qarabağ regionu təbiəti, mətbəxi, tarixi mədəni-dini abidələri, qədim qalaları və s. görməli məkanları ilə turistləri cəlb edəcək. İşğaldan azad olunmuş ərazilərimizdə turizm infrastrukturunun qarşılıqlı əlaqə şəklində qurulması vacibdir. Şuşa Azərbaycan turizminin simvol şəhərlərindən biri olacaq. Azərbaycan mədəniyyətinin incisi olan Şuşanın tarixi abidələri, özünəməxsus arxitekturası yeni turizm marşrutlarının yaradılmasına imkan verəcək. Şuşa mülayim iqlim şəraitinə, mineral suları isə müalicəvi xüsusiyyətlərə malikdir. Bunlar da turizm üçün çox yararlı istiqamətlərdir. Burada tanınmış bəstəkarlar, muğam ustadları, incəsənət xadimləri yetişib. Bütün bunlar imkan verir ki, Şuşada maraqlı turizm xidmətləri marşrutları yaradaraq onları turistlərimizə təqdim edək. Kifayət qədər geniş rekreasiya imkanlarına malik olan Laçındakı İlıqsu müalicəvi əhəmiyyətli mineral bulağı, zəngin flora və faunaya sahib, sahəsi 21 min hektardan çox olan Laçın yasaqlığı bu ərazilərin turizm imkanlarını genişləndirəcək. Buradakı "İstisu" mineral suları ilə insanın həm xarici, həm də daxili xəstəliklərini müalicə etmək mümkün idi. Hətta orada kurort və mineral sudoldurma zavodu da tikilmişdi. Deməli, Kəlbəcərin turizm potensialı hətta Gürcüstanın turizm mərkəzlərinə əsaslı rəqib ola biləcək bir potensiala malikdir. Mütəxəssislərin fikrincə, Kəlbəcərin relyefi dünyanın ən heyrətamiz kanatlarının inşasına, ən maraqlı turizm xidmətlərinin qurulmasına imkan verir. Potensialından düzgün istifadə edilərsə, burada Qafqazın ən böyük turizm mərkəzini yaratmaq, Gürcüstana olan turist axınının istiqamətini dəyişmək mümkündür.

Regionda turizmin əsas inkişaf istiqamətlərinin müəyyən edilməsi ilə bağlı hədəflər həmçinin Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına

dair Strateji Yol Xəritəsində öz əksini tapmışdır. Sənədin 7.3-cü bəndinə əsasən (strateji hədəf 3) Yerli və regional turistlər üçün regional turizm növlərinin inkişaf etdirilməsi, Bakıdan kənarda, Azərbaycanın nadir sağlamlıq turizm seçimlərindən tutmuş qış idman komplekslərinə, şimal-qərb dəhlizi boyunca mədəniyyət abidələrinə və mənzərəli yerlərədək təklif edəcəyi məkanlar və istifadə edəcəyi imkanlar çoxdur. Yerli və regional turistlər üçün cəlbediciliyi daha da artırmaq məqsədilə ölkəmizdə bu aktivlər də inkişaf etdiriləcəkdir.

Qarabağda turizmin əsas inkişaf istiqamətlərdən biri kimi müəyyən edilən istiqamət "işğaldan azad olunmuş ərazilərə böyük qayıdışla bağlıdır. 2020-ci ilin fevral ayında təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədində "işğaldan azad olunmuş ərazilərə böyük qayıdış" beş prioritetdən biri kimi müəyyən edilmişdir. Sənəddə bu prioritetin uğurla reallaşdırılması üçün iki məqsəd müəyyən edilmişdir: dayanıqlı məskunlaşma və iqtisadi fəaliyyətə reinteqrasiya. [8] Bu məqsədlərin həyata keçirilməsi ilə regionun iqtisadi potensialından səmərəli istifadə olunmaqla, əhalinin məskunlaşma səviyyəsinin işğaldan əvvəlki səviyyəyə çatdırılması təmin edilməli və azad edilmiş ərazilərin ölkə üzrə iqtisadi fəaliyyətdə payı işğaldan əvvəlki vəziyyətə çatdırılmalı və daha sonra artırılmalıdır. Ona görə də deyə bilərik ki, azad edilmiş ərazilərin bərpası təkcə Qarabağ regionunun deyil, bütünlükdə Azərbaycan iqtisadiyyatının inkişafı baxımından da böyük əhəmiyyət daşıyır. Bərpa prosesinin hansı formada həyata keçirilməsini müəyyən etmək üçün nəqliyyat, enerji, şəhərsalma və digər istiqamətlər üzrə həyata keçirilən layihələri və turizmin inkişafı üzrə qarşıya qoyulan məqsədləri də əhatə edəcək.

Qarabağda turizmin inkişafı üzrə müəyyən edilən istiqamətlərdən biri də nəqliyyat-loqistika sektorunun bərpası, yolların çəkilməsi, hava limanlarının inşası məsələləridir. "Böyük Qayıdış" proqramının birinci mərhələsi işğal olunmuş ərazilərdə yeni yol-nəqliyyat infrastrukturunun yaradılmasıdır. Regionda böyük əhəmiyyətə malik olan avtomobil yolu isə Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yoludur. Bu yol simvolik məna daşıyır və Zəfər yolu da adlandırılır. Qeyd edək ki, Füzuli-Şuşa avtomobil yolu özünün turizm əhəmiyyəti ilə də seçilir. Belə ki, bu yol Topxana meşələrinin ətəyindən keçməklə Daşaltı kəndinə, oradan isə Şuşa şəhərinə, İsa bulağına qədər uzanır. Bundan başqa, regionda Suqovuşan və Talış avtomobil yolunun, şimal istiqamətində isə Toğanalı-Kəlbəcər avtomobil yolunun da əhəmiyyəti böyükdür. Toğanalı-Kəlbəcər avtomobil yolu Göygöl rayonunun Toğanalı kəndindən başlayaraq, Murov dağı silsiləsindən keçərək, Kəlbəcər, İstisu və Laçın istiqamətində davam edəcəkdir.

Qarabağ regionu kənd turiziminin inkişafı baxımından mühüm əhəmiyyətli istiqamət kimi qeyd olunmalıdır. Qarabağda şəhər və kəndlərin yenidən qurulması ilə bağlı diqqət çəkən əsas məqam isə yuxarıda da qeyd olunduğu kimi, bu prosesdə "Ağıllı şəhər" və "Ağıllı kənd" konsepsiyalarından istifadə edilir. Bu layihələrin tətbiqi Qarabağ regionunda turizmin inkişafına təkan verəcəkdir.

Qarabağın böyük təbii resurslara və ehtiyatlara malik olması bu məqsədin əldə edilməsinə imkan yaradır. Həyata keçirilən nəqliyyat layihələrinin əhatəli olması və Qarabağa müxtəlif istiqamətlərdən hərəkət etməyə imkan yaratması gələcəkdə bu regionun qonşu ölkələr ilə iqtisadi əlaqələrin qurulmasında əsas tranzit əraziyə çevrilməsinə imkan yaradacaqdır.

Qarabağda turizmin inkişafı bölgədə sülh və sabitliyin bərpası, rahat birgə yaşayışın mühüm faktorlarındandır. Buna görə də Qarabağın azadlığa qovuşması XXI əsrin mühüm hadisəsi kimi, turizmin inkişafına, sosial-iqtisadi və mədəni həyata, o cümlədən beynəlxalq münasibətlərə də töhfəsini verəcək. Qarabağda turizmin inkişafı bütün Cənubi-Qafqaz bölgəsi üçün uzunmuddətli sülhün təminatçısı ola bilər. Eyni zamanda, Qarabağda turizmin inkişafı yeni nəqliyyat və kommunikasiya xətlərinin inşasına, Zəngəzur

dəhlizinin açılması Naxçıvan Muxtar Respublikasının Azərbaycanın əsas hissəsi ilə birləşdirilməsindən sonra yeni turizm marşrutlarının yaradılmasına imkan yaradacaq. Qarabağda turizmin inkişafının gələcəkdə bütün belə meyillərə qarşı çox güclü humanitar sipər olacağını proqnozlaşdırmaq olar. [2, s. 38]

Müasir mərhələdə Qarabağda infrastrukturun qurulması, tikinti-abadlıq işlərinin görülməsi, kiçik və orta sahibkarlığın inkişafına dəstək göstərilməsi istiqamətində yeni layihələr hazırlanması prosesi sürətlə getməkdədir. Böyük Qayıdış Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədində əks olunan 5 ümummilli məqsədlərdən biri kimi qeyd olunub. Bu məqsədə uğurla nail olmaq üçün azad edilmiş ərazilərdə məcburi köçkünlərin və yeni sakinlərin dayanıqlı məskunlaşması təmin edilməli, həmin ərazilər cəmiyyətin ən sağlam, müasir və abad yaşayış mühitinə çevrilməli, burada dayanıqlı məskunlaşma üçün müasir prinsiplərə əsaslanan komfortlu yaşayış mühiti yaradılmalıdır.

**Qarabağda turizmin inkişaf istiqamətlərinin iqtisadi qiymətləndirilməsi**

Mühüm elmi mahiyyət kəsb edən məsələlərdən biri də Qarabağ regionunda turizmin inkişaf istiqamətlərinin iqtisadi qiymətləndirilməsidir. Qarabağ regionunda turizmin inkişaf istiqamətlərinin iqtisadi cəhətdən qiymətləndirilməsi üçün ilk növbədə bu bölgəyə aid bir sıra rəqəmlərə diqqət yetirmək zəruridir. İlk növbədə qeyd olunmalıdır ki, Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində Azərbaycanın ekologiyasına və təbii sərvətlərinə ümumilikdə 265 milyard dollar ziyan vurulmasına, maddi ziyanın ümumi həcminin 819 milyard dollar təşkil etməsinə baxmayaraq, bərpa prosesi uğurla həyata keçirlməkdədir. Bərpa prosesin müxtəlif iqtisadi və sosial istiqamətlər üzrə həyata keçirilir.

Azad edilmiş ərazilərin sosial-iqtisadi inkişaf planı hazırlanmış və "Böyük Qayıdış" proqramı əsasında bərpa prosesi başlanılmışdır. Bərpa prosesinin həyata keçirilməsi üçün 2021-ci ilin büdcəsində ilkin olaraq 2.2 milyard dollar vəsaitin ayrılması nəzərdə tutulur. Qarabağ iqtisadi rayonunda 2040-cı ilə qədərki üç mərhələdən ibarət olan bərpa planının ilk mərhələsinin 2026-cı ildə yekunlaşdırılması nəzərdə tutulub. Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə birinci mərhələyə Ağdam, Füzuli şəhər mərkəzlərinin, Hadrut, Suqovuşan qəsəbələrinin və 32 kəndin bərpa prosesi daxildir. Hadrut və Suqovuşan qəsəbələrinin, Talış və Tuğ kəndlərinin vacib turizm məntəqələrinə çevrilməsi və müxtəlif sahələr üzrə iş yerlərinin yaradılması planlaşdırırlır. [9.]

Qarabağda bərpa prosesinin bir neçə mərhələdə həyata keçirilməsi gözlənilir. Birinci mərhələ infrastrukturun formalaşdırılması və kommunal xidmətlərin əlçatanlığının təmin edilməsi, növbəti mərhələdə isə özəl və xarici investisiyanın cəlb edilməsidir. Ümumiyyətlə, azad edilmiş ərazilərin əsaslı şəkildə bərpa edilməsi və orada müasir infrastrukturun yaradılması Qarabağın inkişafının əsas strateji istiqamətlərindən biridir. Çünki, bərpa prosesi həyata keçirilmədən həmin ərazilərin sosial-iqtisadi inkişafını, o cümlədən turizmin inkişafını təmin etmək mümkün deyildir.

Qarabağda turizmin inkişaf istiqamətlərinin iqtisadi qiymətləndirilməsi zamanı Qarabağın bərpası prosesində texnoloji yeniliklərin tətbiqi və müasir standartlara cavab verən infrastrukturun yaradılması əsas məqsədlərdəndir. Ümumilikdə, bərpa prosesi ilə bağlı ilk növbədə müasir standartlara cavab verən inkişaf modelinin yaradılması, Qarabağın texnologiya baxımından yüksək inkişaf etmiş əraziyə çevrilməsi, qabaqcıl texnoloji şirkətlərin bərpa prosesinə cəlb edilməsi, regionun "Yaşıl Enerji" zonasına çevrilməsi olduqca zəruri olan məsələlərdəndir. Qarabağda turizmin inkişaf istiqamətlərinin iqtisadi qiymətləndirilməsi, ümumilikdə regionda bərpa proseslərinin mərkəzləşmiş şəkildə təşkil edilməsi üçün Azərbaycan hökuməti müvafiq tədbirlər görmüş, müharibədən sonra 2020-ci ilin noyabrında Əlaqələndirmə Qərargahı və onun tərkibində də İdarələrarası Mərkəz

yaradılmışdır. Mərkəzin nəzdnində isə müxtəlif məsələlər üzrə 17 işçi qrupu yaradılmış, Strateji Fəaliyyət Planı hazırlanmışdır.

Qarabağ iqtisadi rayonunda turizmin inkişaf istiqamətlərinin qiymətləndirilməsi üçün iqtisadi proqnozlar xüsusilə önəmlidir. Hesab edilir ki, 2030-2050-ci illər ərzində Qarabağ iqtisadi rayonunun maliyyə potensialının 10 dəfədən də çox artımı proqnozlaşdırılır. Buna görə də Qarabağ gələcəkdə həm respublikamızın və Cənubi Qafqazın, həm də Trans-İpək yolu bölgəsinin ən inkişaf etmiş rayonuna çevriləcəkdir. Qeyd edək ki, işğaldan azad edilmiş Qarabağ iqtisadi rayonunun makro və mikro sosial-iqtisadi və maliyyə potensialının artırılması istiqamətləri ölkə Prezidentinin müvafiq Sərəncamı əsasında qəbul olunmuş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də tapmışdır. Milli Prioritetlərə istinad edərək qarşıdakı onillikdə ölkənin sabit və dayanıqlı inkişafında müəyyən olunmuş aşağıdakı beş milli fundamental vəzifənin yerinə yetirilməsi ölkəmizin qarşısında duran taleyüklü vəzifələr kimi qəbul olunmuşdur. Əlbəttə, regionun bərpası və gələcək inkişafı məhz dövlətimizin iqtisadi və maliyyə resursları hesabına Qarabağ iqtisadi rayonunda post-müharibə dövründə turizm dayanıqlı inkişafının qiymətləndirilməsi və prioritet istiqamətləri də aktual olaraq qalır. Turizm sektorunda davamlı gəlir və inkişafa zəmin yaradan əsas faktorlardan biri həmin sektorun təklif etdiyi məhsul və xidmətlər üçün müştəri bazasının mövcud olmasıdır. Ona görə də, bölgə haqqında tanıtım foto və video çəkilişlərinin aparılması və müasir dövrün tələblərinə uyğun olaraq, sosial şəbəkələr vasitəsilə turistlərin cəlb edilməsi məsələsini aktivləşdirmək zəruridir.

Qarabağın və xüsusilə Şuşanın maddi-mənəvi irsini və digər turizm destinasiyalarını özündə əks etdirən infoqrafik xarakterli xəritələr bazası yaradılmasına və mövcud bazanın daha təkmilləşdirilməsinə ehtiyac duyulur. Davamlı olaraq turizm ehtiyatlarının təbliği üçün marketinq sahəsinə investisiyalar yönəltmək öz müsbət effektini ölkənin turizm sektorun üzrə cəlb olunmuş turistlərin sayının artması hesabına Dayanıqlı Turizmin İnkişafına nail olması ilə göstərir. [1, s.14]

Qarabağ regionunda turizmin inkişaf istiqamətlərinin iqtisadi qiymətləndirilməsi üçün post-müharibə ölkəsi olan Şri-Lankanın təcrübəsinə nəzər yetirilməsini zəruri hesab edirik. Bu ölkədə 26 il davam etmiş vətəndaş müharibəsi nəticəsində iqtisadiyyata ciddi zərər dəymişdir. Bunun aradan qaldırılması üçün ölkənin daxili faktorlarına aid edilən güclü və zəif tərəflərini və kənar təsirlər olaraq qiymətləndirilən imkan və təhlükələri də nəzərə alaraq SWOT analiz aparılmış və strategiyalar irəli sürülmüşdür. Birincisi, turizm ölkəsinin formalaşması üçün zəruri amil hesab olunan siyasi sabitlik və əmin-amanlıq vəziyyətinin hökm sürməsidir. Bunun üçün müharibən əziyyət çəkmiş əhalinin yenidən məskunlaşdırılması, onların reabilitasiyası üzrə addımlar atılmalı və barışığa nail olunmalıdır. İkincisi, turizim ölkəsi üçün reputasiyanın qorunub saxlanılması turist cəlb etməkdə əhəmiyyətli hesab edilir. Bu bölgədə münaqişənin son fazasında müharibə cinayətləri törətdiyini iddia edən Tamillər bir sıra xarici ölkələrin və QHT-lərin dəstəyini alaraq Şri-Lankada araşdırmalar aparılmasını tələb edirlər. Turizmin davamlı inkişafına mənfi təsir yaranmaması üçün preventiv tədbirlər kimi həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılması olduqca vacibdir. Üçüncüsü, şimaldakı ərazilərdə turizmin inkişafı üçün lazım olan nəqliyyat yolları müharibə səbəbilə dağıntılara məruz qalmışdı və turist qarşılamaq üçün otel, restoran və digər infrastrukturlar da ürək açan vəziyyətdə deyildi. İnfrastruktur layihələrinin həyata keçirilməsi üçün geniş həcmli maliyyə vəsaiti tələb olunurdu. Post-müharibə Şri-Lankasını araşdıran S.Fernando, J.S.Bandara və C.Smith təklif kimi irəli sürmüşdürlər ki, Tamil diasporunun da investisiyasını cəlb etmək işləri sürətləndirə bilər və bunun üçün bir sıra güzəştləri də ehtiva edən uzlaşmalar əldə olunmalıdır. Dördüncüsü, turizmin dayanıqlı inkişaf vəziyyətinin əldə olunması üçün Dünya Bankının 2009-2010-cu illərdə təmin etdiyi maliyyə vəsaitindən istifadə olundu. 1996-

cı ildən bugünkü dövrə qədər Şri-Lanka hökümətinin turizmlə bağlı siyasətinə diqqət yetirdikdə ölkənin dinc mühitinə nail olunması üçün beynəlxalq müqavilə imzalanması, dövlət və özəl sektorun birgə fəaliyyətini stimullaşdırmaq üçün atılan addımlar və uzun müddətli sülhün əldə olunması üçün görülən digər tədbirlərin şahidi olmaq olar. [6, s. 682]

**Nəticə**

Məqalənin yekunu olaraq, aşağıdakı mühüm nəticələri zəruri hesab edirik: Birincisi, Qarabağ iqtisadi rayonunda turizimin davamlı inkişafına nail olmaq üçün turist axının təmin edilməsi zəruridir. İkincisi, Qarabağ regionunda Şuşanın turizm baxımından önəmi nəzərə alınaraq, bununla bağlı informativ xarakterli bukletlər çap edib xarici turistlərə təqdim etmək və beynəlxalq mediada yayınlamaq zəruridir. Üçüncüsü, Qarabağda ətraf mühit məsələləri xüsusi diqqətdə saxlanılmalı və ekoloji cinayətlərlə mübarizə xüsusi ermənilərin ekoloji terror, ekosid və kulturosid cinayətləri ilə mübarizə məsələlərinə diqqət yetirilməlidir. Çünki regionda ekoturizm mühüm sektordur. Dördüncüsü, yuxarıda təhlil olunan Şri-Lanka təcrübəsi Azərbaycan iqtisadiyyatının inkişafı və mövcud turizm resurslarından istifadə edilməsi üçün nümunə hesab edilməlidir. Bölgədə turizmin davamlı inkişafı həmçinin, uzunmüddətli sülhün təminatçısı ola bilər. Nəhayət, Qarabağa Böyük Qayıdışın təmin edilməsi, Böyük Turizmin də inkişafına stimul verən amillərdən ən mühümü hesab edilir.

## ƏDƏBİYYAT


1. Qarabağ və Şərqi Zəngəzurun İqtisadi Potensialının Sektoral Qiymətləndirilməsi, V İqtisadiyyat və idarəetmə sahəsində tədqiqatçıların beynəlxalq elmi konfransın materialları, ISCEMR 2022, 361 s.
2. Erməni işğalı sonrası Qarabağda turizmin inkişafi məsələləri, Uluslararası Turizm, İşletme, Ekonomi Dergisi,2602-4411, 4(2): 2020, s. 33-44.
3. Святохо Н.В. Концептуальные основы исследования туристского потенциала региона // Экономика и управление. 2007, №2, с. 30-36.
4. Зорин И.В., Кварталнов В.А. Энциклопедия туризма. М.: Финансы и статистика, 2000, 368 р.
5. Gandilova S., «Sustainable development of tourism: the case of Azerbaijan», İpək Yolu, 2019, №3, s. 51-55.
6. Fernando S., Bandara J. S. and Smith C., "Regaining missed opportunities: the role of tourism in post-war development in Sri Lanka", Asia Pacific journal of tourism research, 2012, p.685-711.
7. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər, https://e-qanun.az
8. Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında Azərbaycan Respublikasi Prezidentinin Fərmanı https://e-qanun.az/framework/49997
9. Qarabağın bərpasının ilk mərhələsi bu tarixdə yekunlaşacaq, https://modern.az


***Резюме***

***Sadik Askerov***


***Основные направления туризма в Карабахском экономическом районе***

В статье анализируются основные направления развития туризма в Карабахе как экономического района с целью оценки туристического потенциала Карабахского экономического района и характеристики вклада, который этот регион может внести в туристическую инфраструктуру нашей страны в будущем. Карабахский экономический район является одним из важных регионов нашей страны со стратегической точки зрения, с географической, социально-экономической точки

зрения, в том числе с точки зрения туристического потенциала. Сегодня в Карабахе осуществляются масштабные инфраструктурные проекты, реставрационные и строительные работы, а также соответствующие работы по созданию туристической инфраструктуры, определяются основные направления туристического сектора нашей страны в этом регионе. В зависимости от видов туризма в Карабахе можно обеспечить создание туристической инфраструктуры в этих районах. Еще до оккупации Карабах отличался широким потенциалом развития в сфере туризма. В результате армянской агрессии в Карабахе и прилегающих районах в настоящее время существуют проблемы, связанные с обеспечением безопасности туристов.

В качестве заключения статьи считаем необходимым сделать следующие важные выводы: для достижения устойчивого развития туризма в Карабахском экономическом районе необходимо обеспечить поток туристов. Во-вторых, принимая во внимание значение Шуши с точки зрения туризма в Карабахском регионе, необходимо напечатать информационные буклеты и представить их иностранным туристам и опубликовать в международных СМИ. В-третьих, экологическим вопросам в Карабахе следует уделить особое внимание, а борьбе с экологическими преступлениями следует уделить особое внимание вопросам борьбы с экологическим терроризмом, экоцидом и культуроцидом преступлений армян.

***Ключевые слова:*** *Туризм, Карабахский экономический район, развитие туризма, туристический потенциал, туристические ресурсы.*

***Summary***

***Sadiq Askerov***

***Main Directions of Tourism in Karabagh Economic Region***

The article analyzes the main development directions of tourism in Karabakh as an economic region in order to evaluate the tourism potential of the Karabakh economic region and characterize the contributions that this region can make to the tourism infrastructure of our country in the future. Karabakh economic region is one of the important regions of our country from a strategic point of view, from a geographical, socio-economic point of view, including tourism potential. Today, Karabakh large-scale infrastructure projects, restoration and construction activities, as well as relevant works on the creation of tourism infrastructure, are being carried out, and the main directions of the tourism sector of our country are being determined in this region. Depending on the types of tourism in Karabakh, it is possible to ensure the creation of tourism infrastructure in those areas. Even before the occupation, Karabakh was distinguished by its wide development potential in the field of tourism. As a result of Armenian aggression in Karabakh and surrounding regions, there are currently problems related to ensuring the safety of tourists.

As a conclusion of the article, the following important conclusions are considered necessary: in order to achieve the sustainable development of tourism in the Karabakh economic region, it is necessary to ensure the flow of tourists. Secondly, taking into account the importance of Shusha from the point of view of tourism in the Karabakh region, it is necessary to print informative booklets and present them to foreign tourists and publish them in the international media. Thirdly, environmental issues in Karabakh should be given special attention, and the fight against environmental crimes should be paid special attention to the issues of fighting environmental terrorism, ecocide and culturocide crimes of Armenians.

***Keywords:*** *Tourism, Karabakh economic region, tourism development, tourism potential, tourism resources.*

Redaksiya heyətinin üzvü İ.e.d., prof. Həsənli Yadulla Həmdulla oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.